BƏDİİ AXTARIŞLARDA YAŞANAN ÖMÜR

Fikrət Qocanın ədəbi ömrü bədii axtarışlarda keçib. Vətənin içindən başlayan səyahəti sərhədlər aşıb, dənizlər, okeanlar keçib, insanlar, talelər, ömürlər arasında yaşayıb. İctima-siyasi hadisələrin kökünə varıb, müxtəlif xalqların tarixini öyrənib. Yaddaşının mərkəzində olan hadisə və şəxsiyyətləri bədii süjet xəttində işləyərkən realizm prinsipinə söykənib, poetik təsvirlərində dolğun şəkildə əks etdirib. Bu əsərlər heç şübhəsiz, yaradıcılığının ilk dövrlərindən başlayaraq müdriklik çağınacan yol alan ədəbi taleyinin dəqiq kompasıdır. Bu kompasın göstərdiyi məkan və obyektlər torpaqdı, dənizdi, mavi göylərdi və əlbəttə ki, onları sevdirən, həyatın çox gərəkli, vacib elementinə çevirən insandı, onun mənəvi dünyası, arzuları, gələcəyə ümidli baxışlarıdı.

Fikrət Qocanın əsərləri həyatımızın tərkib hissəsi olmuş hadisələri düşüncəmizə, yaddaşımıza yazmaq qüdrətindədir. Bu əsərlərdəki lirik ovqat, hiss və düşüncə, vətəndaşlıq missiyası, dünyəvi mətləblər, milli-bəşəri problemlər özünün çeşidli çalarları ilə həyat həqiqətlərinin timsalında cəsarətlə, qətiyyətlə işıqlandırılmışdır. Onun yaradıcılığında xalq həyatı, Azərbaycanın tarixi, dünyamızın mənzərəsi bütün əzəməti, parlaqlığı ilə öz əksini tapmışdır. Bədii axtarışlarından qazandığı ədəbi uğurlarına görə də cəsarətlə demək olar ki, Fikrət Qoca uzun illər özünün poetik düşüncəsi, milli təfəkkürü ilə zamanın içiylə yeriyən, yaşadığı hadisələrin ictimai mənasına varan güclü, qüdrətli ədəbi şəxsiyyətdir. Şair yaradıcılığı boyu sözdən fırça kimi də istifadə etməyi bacarmışdır. Onun poeziyası, həm də nəsri dünyanın gərdişinə, milli-bəşəri hadisələrə, yaşadığımız itkilərə, ölümsüz ölümlərə, qəhrəmanlıqlara həsr olunmuş yaddaş rəsmləridir. Səfərlərdə gördüyü şəhərlər, bu şəhərlərin təbiəti, insanları, çayları, meşələri onun əsərlərində bir panoram kimi görünür.

Müəllif özünün qəhrəmanlarını uzaqlarda – dənizlərin arxasında, nağıllarda, əsatirlərdə arayıb-axtarmır, insanların arasında apardığı müşahidələrindən görüb-götürür. Qəhrəmanların təbiətindən, xarakterindən, hal-xasiyyətindən gələn xüsusiyyətləri sözünün qüdrətilə nizama düzür. Beləliklə, onlar yazıçının bədii təxəyyülündə, düşüncəsində formalaşaraq həyat-cəmiyyət hadisələri, bədii obrazlar timsalında həqiqi ədəbiyyatın materialına çevrilə bilir.

Fikrət Qoca ilk gənclik çağlarından həyatı öyrənmək sevdasında olduğundan illər boyunca qarşısına qoyduğu məqsədini, istəyini reallaşdıra bilib. Kotanarxdan başlanan müşahidələrini yaşam boyu ürəyinin işığından, istisindən keçirərək yüzlərlə əsərlərinin mövzusu edib. Həyatdan öyrəndikləri, insanlardan görüb-götürdükləri hər zaman düşüncəsini, duyğularını qanadlandırıb. Və bu əsərlərdə ilk yaradıcılığından üzü bəri kamilləşən, müdrikləşən şair özünəinamı və özünüdərki gənclərə öyrətməyə, təlqin etməyə çalışıb.

Fikrət Qoca gəncliyimizin ən populyar şairi idi. Hələ o vaxtlar sayca az olan mətbuat orqanlarında onun şeirlərini həvəslə oxuyur, mahnılarını sevərək züm-zümə edirdik. Şairin həyata sevgisi, marağı şeirləri kimi həmişə təravətlidir. Hərdən mənə elə gəlir ki, Fikrət müəllim üçün şeirlərinin məxsusi yazıldığı vaxt, şərait yoxdur. Gəzdiyi, olduğu yerlərdə həyata, təbiətə, insanlara poetik nəzərlərlə baxdığındandır ki, dünya şairin gözündə bitib-tükənməyən arzularının, həyat eşqinin çeşməsi timsalındadır: “

–

–

.

Dünyanın gərdişindən, vərdişindən öyrənən şair gəldi-gedərlik qanunlarının incəliyinə varmağı, gözü-könlü tox, ləyaqətlə yaşamağı vacib sandığındandır ki, həyata açıq gözlə, reallıq prizmasından nəzər yetirməyi başqalarına da tövsiyə edir. Ömür boyu hərisliklə, acgözlüklə var-dövlət yığanlara şairin olduqca sadə bir xatırlamasından necə faydalanmayasan... “ °

–

Gənclik illərinin yadigarı olan bu yığcam şeirdə şair vara, dövlətə həris insana böyük mətləbi anladır. Burda nəsihət də var, böyük hikmət də: Nə varsa, hamısı torpağındı... Əldən tutmaq, qoldan yapışmaq, tikəni bölüşmək, xalqını, vətənini sevmək, sevdiklərinə sadiq olmaq, dəyərləri yaratmaq və yaşatmaq – budur insanın yaşadığı dünyada öhdəliyi, insanlıq borcu.

Bu gün ölkələrin bir-birilə əlaqəsi, dünyanın əmin-amanlıqda olması bütün xalqların istəyi, arzusudur. Bu münasibətləri qorumaq isə dünya xalqlarının vətən borcu olmalıdır. Təəssüflər olsun ki, bəzən kağız üzərində sülhün tərəfdarı olub insan qanına susayanlar, özgə torpaqlarına göz dikənlər, günaha batanlar heç Allahı yada salmırlar. Amma Tanrı insanlara qəddarlığından, amansızlığından əl çəkməyə vaxt verir, zaman verir. Şair dünyanı qarışdıranlar, insanlığı məhv edənlər, yer üzünü viran qoyanlarla, Allahlıq iddiasında olanlarla həmişə savaşdadır: “

–

–

Şairin vətənə sevgisi adi deyil, orijinaldı. Vətənin gülünü, çiçəyini sevmək, gözəllərini vəsv etmək hələ böyük sevgi deyil. Gərək vətənin dərdini çəkməyi, qada-balasını almağı bacarasan. Ağır günlərində sözünlə, əməlinlə sərhəddinə çəpər olasan. Onu gələcək nəslə ləyaqətlə əmanət edə biləsən. Fikrət Qocanın vətən sevgisi belə bir borc hissindən, ona həqiqi bağlılıqdan yaranıb.

–

–

Fikrət Qocanın yaradıcılığında mahnı mətnləri də xüsusi yer tutur. “Azərbaycan”, “Yollar görüşəndə”, “İlk sevgi”, “Ana”, “Məcnun gəzər Leylini”, “Ay ana, dostum evlənir”, “Dilin can incidəndir”, “Gəl səhərim”, “Bir baxmısan, bir də bax”, “Sənin bircə təbəssümün”... mətnlərindəki həzinlik, ülvilik, şirinlik, eyni zamanda işıqlı sabahların, ümidlərin ziyası insanı duyğulandırır. Bu şeirlər sadəcə musiqiyə yatımlı olması ilə deyil, orda təsvir olunmuş vətən torpağı, onun bitirib-yetirdikləri, çayları, çəmənləri, insanın munis duyğuları bütün gözəllikləri ilə doğma və əzəmətli görünür.

Adi həqiqətlərin içərisində insanın mənəvi qatında gizlənən, uzaq yolların düşüncələrinə, görüb-götürdüklərinə, ümumən bütün gerçəkliklərə müəllif çox bucaqlardan göz yetirir. Və bizi də yaşadığımız ömrə həqiqətin gözü ilə nəzər yetirməyə sövq edir. Bunlar şairin öz düşüncələri olsa da həyat materialları ilə xarakterizə edildiyindən ictimailəşə bilib. Elə şeirin, sənətin gücü də bundadır.

Poemalarında istər vətəndə baş vermiş ictimai-siyasi hadisələr, istərsə də uzaq ölkələrə səfərləri zamanı o yerlərin həyatı, insanları, təbiəti haqqında eşidib-bildiklərini, gördüklərini şair müasirlik-tarixilik qovuşuğunda işləmişdir. Fikrət Qocanın poemaları ciddi, gerçək hadisələrdən bəhs edən həyat hekayələridir. Bu əsərlərin aşıladığı ideya və qayə, müəllifin məqsədi sadə, həm də dolğun süjet xətti boyunca işıqlandırılıb. “Oddan keçənlər”də 37-in vahiməsi, qara-qorxusu böyük sənətkarlıqla işləndiyindən, əzilən, məhv edilən insanların fəcində şairin zamana tüğyan edən qəzəbi oxucunu riqqətə gətirir. Bu dövranda satanların şərəfsizliyi üzündən satılan tərəflərin ocaqları söndürülüb, evləri dağılıb. Qəribədir, zülmə-zindana dözüb-dayananlar azadlıqda da rahat yaşaya bilmirlər. Çünki üzə duranlar, haqqa şər atanlar yenə vəzifə başındadırlar. Bütün bunarı görmək və duymaq şairi çox incidir. Belələri ilə üz-üzə gəlmək qəlbini ağrıdır. Amma həqiqət incələr, üzülməz, deyib atalar. Haqq aşiqi günahsız köçür bu dünyadan, xain, satqın, ev yıxana isə “şərəfsiz bir əcəl” qismət olur.

(Davamı var)